# AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ
# DÖVLƏT EKOLOJİ EKSPERTİZA AGENTLİYİ

Ünvan: Az1154, Bakı şəhəri, Heydər Əliyev prospekti, 10
E-poçt: info.deea@eco.gov.az
Tel: (+994 12) 567 08 28
Faks: (+994 12) 567 08 28

"23" fevral 2024 il

№ 3-14-22/2-258/2024

"Turan" İnformasiya Agentliyinin direktoru
cənab Mehman Əliyevə

2024-cü il 20 fevral tarixli,
578 nömrəliyə

Hörmətli Mehman müəllim,

Ekologiya və Təbii Sərvətlər Nazirliyinə "Turan" İnformasiya Agentliyi tərəfindən ünvanlanmış sorğuya əsasən bildiririk ki, Buzovna qəsəbəsində Xəzər və Şəki sanatoriyaları ərazisində kanalizasiya xətlərinin çəkilməsi layihəsi üzrə Dövlət Ekoloji Ekspertiza Agentliyinə hər hansı müraciət daxil olmayıb.

Bildiririk ki, 11 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları tərəfindən əraziyə baxış keçirilmiş, ərazidə həyata keçirilmiş tikinti işlərinin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "Kurort" QSC-nin sifarişi ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Ərazi Tikinti-Planlaşdırma Mərkəzi tərəfindən təyin olunmuş trassa planı əsasında "Azərsu" ASC-nin "Sukanal" ETLİ-nin layihəsi üzrə aparıldığı müəyyənləşdirilmişdir.

İnşaat işləri zamanı yol verilmiş nöqsanlar səbəbindən yolda hər hansı çökmə hallarının olması tikinti norma və qaydalarının tələblərinə aid olduğundan səlahiyyətləri daxilində digər qurumlara müraciət olunmalıdır.

Nəzərə almağınızı xahiş edirik.

Hörmətlə,

İdarə Heyətinin sədri — Mirsalam Qənbərov